# "O verilişə getməyim ayıb olar..."

**(əvvəli ötən sayımızda)**

*Adalet.az xalq artisti Arif Quliyevlə müsahibəni təqdim edir.*

**- Arif müəllim, tamaşalardan hansındasa siz qadın paltarı geyinmisiniz?**

- Deyim da sizə. Azərbaycan Milli Dram Teatrında "Qısqanc ürəklər" tamaşası olub. Mən orda geyinmişəm. Epizod olaraq. Rəfael Dadaşov geyinib, Yaşar müəllim geyinib. Ssenaristdən asılıdı. Ssenari belə yazılıb, sən də bunu oynamalısan. Mənim münasibətim normaldı. Amma teatrşünaslar maraqlanar ki, bu niyə yazılıb? Həmişə olmur ki, başqa variantlar da var orda. Aktyorun işi ona verilən obrazı, rejissorun və yazıçının məqsədini, məramını, formasını, funksiyasını dolğun şəkildə ifa etməkdən ibarətdir. Mən "Bəyin oğurlanması"nda iki dəfə artıq söz işlətmişəm. Vaqif müəllim onu saxlamayıb. Yaşar girir həyətə, uşağın əlindən qaloşu alıb batır və şapalaq vurur ona və minir maşına getməyə, görür mən qaçıram. Deyir Miriş, gəl səni də aparım. Gördüm əsəbidi, mənə də bir şapalaq vurar. Dedim yox, sən get, mən tələsirəm. Biz aktyorların da bəzən müdaxilə etməyə ixtiyarımız çatır. Çünki çox adamlar rollardan çıxarılır. Aktyora rol verilir, gəlib deyir ki, niyə qoymursan o sözü deyim? Rejissorun dediyinə, yazıçının fikrinə əməl etməliyik.

**-Müstəqil teatrlara gedirsinizmi?**

- Çox üzr istəyirəm, sözünüzü kəsirəm. Getməliyəm. Amma dəvət eləsinlər ki, gedim baxım.

**- Afişa yaradıblar...**

- Mənə "Maşın şou"da bu telefonu bağışlayıblar. İşlətməyi indi-indi öyrənirəm. Amma 6 il di ki, kitayski telefon işlədirdim. Zəng gedir, gəlir, başqa şey bilmirəm. İstəyirəm bunu öyrənim, hələ də bunu öyrənə bilmirəm.

**- Bəs hansı teatrlara çox üstünlük verirsiniz, tamaşalarına gedib baxırsınız?**

- Mən yaxşı tamaşası olan teatrlara üstünlük verirəm. Musiqili Komediyada 20 il, İrəvan teatrında 7 il işləmişəm və hamısının da tamaşasına gedib baxıram. Rus teatrının, Şuşa teatrının, Pantomim teatrına, Uşaq teatrının tamaşalarına gedib baxıram. Mənim sovet dövründə yaratdığım özəl teatrım var idi bağlandı, İlham müəllimin də var idi işlətmir. Afaq xanımın teatrı var hal-hazırda işlədir. İmkanı olan işlədir, imkanı olmayan da işlətmir.

**-İmkanlı şəxslər ədəbiyyata dəstək dururlar. Onda belə çıxır ki, həmin imkanlı şəxslərin teatra marağı olmadığı üçün dəstək durmurlar. Heç müraciət etmisiniz onlara?**

- Xeyr, heç kimə müraciət etməmişəm. Amma iki dəfə efirdə demişəm ki, imkan olsa öz həyatımdan bir film çəkərəm. Amma heç kimdən reaksiya gəlmədi.

**- Filminiz tragikomedik janrda olardı yəqin...**

- Bəli, tragikomedik olacaq. Göz yaşlarından başlayan bir həyatdı da. Uşaqlıqdan qoyub getsinlər səni və ordan addım-addım gəlib bu pilləyə çatmaq çox çətin məsələdi. Birdən elə yaxşı insanlarla qarşılaşırsan ki, hansısa periodda sənə əl tuturlar. Yaxşı insanlar var, amma adlarını çəkmək olmur. Onu da Allah yetirir.



**-Arif müəllim, həyatınızın o çətin dövründən danışdınız. Yetimçiliklə böyümüsünüz. Siz özünüzü nə vaxt yetim hiss etmisiniz?**

- Həmişə hiss etmişəm. Mən toya getmişəm, toyu idarə etmişəm. Bəylə gəlinin atası-anası onların qarşısında oynaya-oynaya ona toy edib... amma... Amma mən onların hamısını özüm təşkil etmişəm.

**- Bir dəfə hansısa verilişdə əhvalınız dəyişdi, təcili yardım gəldi. Orda övladlarınızla bağlı bir fikir işlətdiniz. Övladlarınızın sizi çox istəməyi ilə bağlı...**

- Yox, orda söhbət məndən getmədi. Dedim ki, adam var ana-ata axtarır. Məsələn, mən. Amma o oğlanlar bu cür atanı atıblar. Mən çox görmüşəm. Qocalar evinə gedirəm görürəm ki, oğlu vəzifədədi, amma atansını gətirib qoyub ora. Deyirlər ay Arif müəllim, mənə baxmırlar. Mənə də çox köməklik ediblər, televizora alıblar və sairə. İstəmişəm ki, mən də kiməsə kömək əlimi uzadım. Amma mənim imkanım o qədər deyil axı.

**- Allah övladınıza rəhmət eləsin. Bir qız, bir oğlunuz var. Sizi çox istəyirlərmi?**

- Bəli.

**- Arif Quliyevi çox istəyirlər, yoxsa xalq artistini çox istəyirlər?**

- Arif Quliyevi. O xalq artisti addı. Bilmirəm neçənci il idi, xalq artisti adı verilirdi. Sizin qəzetdə Aqil müəllim yazmışdı ki, hamıya xalq artisti adı verildi, mən də istədim. Onda da mənə Ulu Öndərimiz xalq artisti adı verdi.

**- Nazirliklə aranız necədi? Heç sizinlə maraqlanırlarmı?**

- Çox əla. Bəli, maraqlanırlar.

**- Arif müəllim, bildiyimə görə, ədəbiyyata da marağınız var, şeir də yazmısınız. Efirdə Xalqın Şairi telelayihəsi gedir. Ora dəvət etməyiblər ki, sizi? Çünki incəsənət adamları da gəlir ora. Münsif kimi iştirak edirlər...**

- Yox, ora getməyim ayıb olar. Bəli, münsif kimi dəvət edə bilərlər. Əvvəllər mən teatrda işləyəndə fikirləşirdim ki, hər şey yaxşıdı və mən toylara getməyim, qoy başqaları getsin. Mən belə qəbul edirdim. İndi verilişlərə də çağıranda deyirəm ki, gəncləri çağırın. Mən daha sözümü demişəm.

**- Bəs maşın şouya niyə getmişdiniz? Düzü, sizi orda görəndə türklər demiş, şaşırdım...**

- Deməli, məsələ nədi. Mən maşın şouya niyə getdim? Murad çox gözəl insandı, sadə, səmimi və də gözəl şoumendi. Təklif etdi. Mən də təklifini qəbul etdim, amma dedim ki, orda bir-birilərini təhqir edirlər. O da dedi ki, sən heç kimə heç nə etməyəcəksənsə, səninlə də heç kimin işi olmayacaq.

**- Maşını udmaq istəyərdiniz?**

- Yox, çünki orda çox dayana bilməzdim. Ayaqlarım ağrayır. Bax, bu telefonu onlar mənə bağışlayıblar. Heç vaxt belə bahalı telefonum olmayıb. Bir də mənə "Emilənd"dən bahalı kostyum tikdirdi və hədiyyə etdi.

**- İnformasiya vasitələrində ordakı hadisələrlə bağlı neqativ fikirlər səsləndi. Orda abhava efirdə göründüyü kimidi, yoxsa...**

- Mən sizə bir söz deyim. İnformasiya vasitələri də gedişatı yaxşı işıqlandırır. Amma hər bir şeyi hamı qəbul etmir axı. Həmişə bunu özümdə misal çəkirəm. Arif Quliyevi hamı bəyənə bilməz. Doqquz milyondan bir ikisi, üçü Arifi istəyər. Murad Dadaşov da o şoumenlər arasında bir az görünən, hiss olunan, sevilən, sayılandı. Müsəlmançılıqdı da, kimsə nəsə yaza, deyə bilər. Mən orda doğurdan da təmizlik gördüm. SMS necə gəldisə. Mən çox qorxurdum SMS-ə görə. Düzdür, tamaşaçı da səni sevir, amma qonaqlıq verə bilmir. Fikirləşdim SMS yığa bilmərəm pis olaram. Amma bu dəfə insanlar səs verdilər, gözüm yaşardı. Amma mən tərəf-müqabilimi çıxarmadım.

**- Sizi sevirlər Arif müəllim...**

- Allah bir tərəfdən alıb, o uşaqlıq çətinliklərini, valideyn nəvazişini, amma böyük bir xalqın məhəbbətini verib. Ona görə mən bu xalqın qarşısında baş əyirəm. Nə qazanmışıqsa, xalqın hesabına oulb. Bizə nə veriblərsə, o xalqın sevgisinin müqabilində veriblər.

**- Youtube-da bir videonuz yayılıb. Şamaxinkadan üzü aşağı Ekologiyaya gedən tərəfdə kimsə gəlib maşında sizə yaxınlaşanda siz də bığ taxmısınız. Maşında belə şeylər olur, o maraqlıdı?**

- Olur, insandı da. Mən başqası kimi ona tərs baxa bilmərəm. Çünki o mənim daxilimdə yoxdu. Zarafat edənlə zarafat edirəm. Hətta mənə bunu nöqsan tutanlar da var. O tamaşçıdı da, onun sevgisinin nəticəsidi.

**- Aktyor olmasaydınız hansı peşəni seçərdiniz və bir də aktyor olmağınıza görə nə vaxtsa peşman olmusunuzmu?**

- Ancaq aktyor olardım və heç vaxt da peşman olmamışam. Situasiyanı sən özün yaratmasan, səni dolaşdırmazlar. Min dənə söz deyə bilərlər. O qədər deyiblər, o qədər badalaq vurublar, o qədər şər yıxıb roldan çıxarıblar. Amma dözmüşəm. O badalaq vurana hörmət eləmişəm, saymışam, salam vermişəm. Bir rejissor, adını çəkmirəm, mənə beş il rol verməndi. Sonda dedim ki, "axırda ölüb gedəcəksən ki..."

**- Bəs nə dedi?**

- Heç nə, başını aşağı salıb çıxıb getdi. Sonra o rolu mənə verdilər. Teatr çox qəlizdi. Orda gərək vəziyyətdən çıxmağa çalışasan.

Teatrda qəribə bir şey var. O hər yerdə var. Nə qədər ki, səni tanımırlar, sevmirlər, teatrda ən yaxşı aktyorsan, ən gözəl insansan. Görən öpür, qucaqlayır. Vay o günə ki, tanıyalar, ondan sonra o aktyorlar dedikləri olur heç nə. Ona gərək dözəsən. Dözmüşəm ki, bu vaxta qədər gəlib çıxmışam.

**- Onlarca uğurlu aktyor obrazı yaratmısınız. Elə olubmu ki, obrazın təsirinə düşmüsünüz? Günlərcə Arif Quliyevi unutmusunuz, obrazla yaşamısınız?**

- Yox, mən obrazın arxasınca düşməmişəm. Mənə rol ki, veriblər ha, o saat beynimdə həll eləmişəm. Hiss edirəm ki, mən ona hazıram. Bəzən mən mətni əzbərləyə bilmirəm, əzbərçi deyiləm. Bədahətən söz gəlir, söz yerinə düşürsə, deyirəm.

**- Təşəkkür edirik.**

**Söhbətləşdi:**
**Nicat Novruzoğlu,**
**Ədil Ədilzadə**